# Ömər Faiq Nemanzadənin naməlum məktubları



## Həyatından:

*XIX əsrin sonu — XX əsrin əvvəllərində yazıb-yaratmış Azərbaycan ədibi, ictimai-siyasi xadim, mollanəsrəddinçi, publisist, pedaqoq, "Qeyrət" mətbəəsinin və "Molla Nəsrəddin" jurnalının həmtəsisçisi Ömər Faiq Nemanzadə 24 dekabr 1872-ci ildə Gürcüstandakı məhsəti türklərinin yaşadıqları Axalsıx qəzasının Azqur kəndində, Lömən bəylə Həmidə xanımın ailəsində anadan olub. 1882-ci ildə İstanbula gedərək "Fateh"" məktəbində təhsilini davam etdirib. Təbiət elmlərinə həvəsi olduğuna görə sonradan "Dar-üş Şəfəq" məktəbinə daxil olub. 1891-ci ildə həmin məktəbi bitirdikdən sonra Qalata poçt və teleqraf idarəsində əmək fəaliyyətinə başlayıb. O, burada qəzet və jurnallar vasitəsilə Avropadakı demokratik ruhlu türk mühacirlərinin əhval-ruhiyyəsi və türk inqilabçı şairlərin bədii yaradıcılığı ilə yaxından tanış olub.*

*Onun bacısı oğlu Əhməd bəy Pepinov Zaqafqaziya Seyminin üzvü, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü və katibi, hökumətdə Əmək və Əkinçilik naziri olmuşdu. Ömər Faiq də fəal idi. Müsəlman Şərqində ilk cümhuriyyətin qurulmasına can atan Nəsib bəy Yusifbəyli, Nağı bəy Şeyxzamanlı və digərlərindən ibarət heyətin tərkibində İstanbula gəlmiş Ömər Faiq Nemanzadənin də gərgin əməyi sayəsində Nuru paşanın komandanlığı ilə azərbaycanlılardan və osmanlılardan ibarət Qafqaz İslam Ordusu Azərbaycana gəldi və tarix yazdı. Sonralar o, AXC-nin Nəzarət naziri – nəzarətçi-müfəttiş kimi bir çox faydalı işlər görmüş və bu vəzifədə sovet hökumətinin ilk illərinədək çalışmışdı. Bundan başqa Ömər Faiq Axısqa Müvəqqəti Hökumətinin sədri, Gürcüstan SSR Müvəqqəti İnqilab Komitəsinin üzvü, Gürcüstan SSR Müsəlman İşləri Üzrə Şuranın 1-ci sədri vəzifələrini də tutmuşdu. 1920-ci ildə o, Gəncə Zəraət (kənd təsərrüfatı) Texnikumunun direktoru işləyib. 1920-1921-ci illərdə "Zəhmətkeşlərin gözü" jurnalının redaktoru olub, bir az sonra "Yeni fikir" redaksiya heyətinin üzvü seçilib. İnqilab illərində Ömər Faiq dəfələrlə həbs edilib. 1923-cü ildə Azərbaycana gəlib və 1924-cü ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığında işə düzəlib. O dövrdə dərsliklərin hazırlanmasına və onların çap edilməsinə yardım edib. Yaşlaşdıqda Gürcüstana, doğulduğu yerlərə dönüb. Lakin 16 iyul 1937-ci ildə həbs edilib və həmin ilin 10 oktyabrında üçlüyün tərtib etdiyi 29 saylı məxfi protokol əsasında güllələnib. 1958-ci ildə ölümündən sonra bəraət alıb.*

## Ön söz yerinə

Bir qədər əvvəlin söhbətidir, mövzunun mənə yaxın olduğunu bilən həmkarlarımdan biri elektron poçtuma Ömər Faiq Nemanzadənin nəticəsi, hazırda İngiltərədə yaşayan rəssam Ülvi Pepinovanın xalqa müraciətini yollamışdı. Azərbaycan virtual məkanını dolaşan həmin yazıya diqqətimi cəlb etdiyi üçün qələm dostuma minnətdarlıq duyğuları ilə müraciəti diqqətlə oxudum. Bir qədər sonra Ülvi xanımın daha bir yazısı, bu dəfə geniş müsahibəsi yayıldı internetdə. Hər iki çıxışın mövzusu eyni idi: Ömər Faiqin özünə və irsinə laqeyd münasibətdən giley. Xanımın özü ulu babası ilə bağlı müəyyən işlər görsə və hətta onun adına internet saytı belə yaratsa da haqlı olaraq bunları yetərli hesab eləmirdi. Mirzə Cəlilin məsləkdaşı və dostu olmuş sərrast qələmli publisistə, naşirə, maarif işçisinə, ictimai-siyasi xadimə, dövlət adamına və nəhayət, sovet repressiya maşınının qurbanına Azərbaycanda davam edən sərin münasibət onun nəticəsini üzür, acı təəccübünə səbəb olurdu...

Dediyim kimi, bu fikirlər mənə çox tanış idi. Eyni giley-güzarı düz 30 il əvvəl də eşitmişdim. Amma mətbuatdan deyil, birbaşa Ömər Faiqin qızları Kamilə, Adilə və Bəxtli Nemanzadələrdən. Nə acı ki, zaman və hətta siyasi sistem dəyişsə də Ömər Faiq Nemanzadəyə münasibət dəyişməmişdi. Ancaq, gəlin tələsməyək. Jurnalist taleyimdən keçmiş, lakin acı təəssüratı ötüb getməmiş bir mövzu ilə necə rastlaşmağımın tarixçəsini lap əvvəldən vərəqləyək. Vərəqləyək ki, hər daş öz yerini tutsun, qart hafizələr təzələnsin...

## Birinci məktub

**Adilə!**

*Görünür kağızına cavab yazmadığım üçün ikinci kağız yazmadın. Mənim bu günlərdəki sıxıntımı, zəhmətimi, halsızlığımı, xəstəliyimi bilsən mənim qüsuruma qalmazsan.*

*Üç-dörd gün yenə zəhmətim var. Sonra səninlə uzun söhbət edərəm. Builki almaları dolu bərbad etdi. Bununla bərabər yenə hökumətə də verirəm. Özüm üçün də saxlayıram. Başım qarışıq olduğu üçün heç bir şey göndərməyəcəyəm. Çünki gələn kimsə yox. Olan kimi göndərərəm. Süleyman əminin keyfi nasıl? Məndən çoxlu salam söylə. Bibi nə haldə? Bu qış fikriniz nə iş görməkdir? Kəbirə harada? Büllur yenə köhnə yerindəmi? Qulluq edirmi? Afət xəstə deyil ki? Başı nasıl oldu?*

*Səndən bir böyük ricam var: qardaş və bacılarınla yaxşı rəftar edib keçinəsiniz. Bir-birinizin hayına, canına düşməyəsiniz. Yola gedəsiniz. Hər uşaq şeyə pursıqlanıb gögərməyəsiniz. Bir az ağır başlı, soyuq qanlı, geniş ürəkli, uzun səbirli, düz düşüncəli olunuz. Bir-birinizlə yola gedib rahat və insanca vaxt keçiriniz. Dərslərinizdən də bir dəfə olsun geri qalmayın. Biz gəlincəyə qədər səbr edin, yola gedin. İsitmə tuturmu? Dərsləri vaxtında hazırlaya bilirsinizmi? Hazırlaya bilməsəniz, səbəbi nədir? Pulsuzluq isə bax, mən heç şeyə baxmayıb pul göndəriyorum. Tək siz rahat olub yola gedəsiz. Fəzail ağagil (Güllü, Əli, Cəlalla bərabər) Abastumana (Əslində isə İstanbula – Ömər Faiq yazmağa ehtiyat edib – Ş.S.) getmişlər. Burada yoxdurlar.*

*Nazimin oğlu Cavid ömrünü sizə bağışladı. Məmmədzəki Axıskada, Münirə Azqurda xidmət edirlər. Tezliklə kağız. Gecikmək lazım deyil.*

**İmza**

**8.10.1933**

## Ata həsrəti

1991-ci ilin yayı idi. Məhsəti türkü olan tanışlarımdan birinin əlində yazılı vərəqlər gördüm. Maraqlandım. Dedi ki, Ömər Faiq Nemanzadənin qızı Kamilə xanımın şikayət məktubudur, xahiş edib ki, ünvanına çatdırım. Məktub çağdaş ədəbiyyatımızın o vaxt da, indi də öncülü olan bir tanınmış zata ünvanlanmışdı. Ömər Faiqin öz ömrünün ahıl çağlarını yaşayan qızı burada atasının ictimai-siyasi fəaliyyətindən söz açır, onun necə ağır və məşəqqətli həyat yolu keçdiyini xatırladırdı. Məktub giley, məzəmmət ovqatlı idi.

Öyrəndim ki, Ömər Faiqin dörd övladından üçü - həkim qızları Kamilə, Adilə və Bəxtli sağ-salamatdırlar və Bakıda yaşayırlar. Məni onlarla görüşdürməsini xahiş etdim. Tanışım söz verdi, tezliklə də sözünə əməl elədi.

Beləcə mən hələ universitet auditoriyasından haqqında çox eşitdiyim, publisistik yazılarını oxuduğum Ömər Faiq Nemanzadənin övladları ilə həyatda görüşüb dərdləşmək imkanı qazandım. Tezliklə onun böyük qızı Kamilə Nemanzadə-Pepinova ilə dostlaşdıq. İşdən-gücdən vaxt tapdıqca ona zəng edir, məşğul olmadığını öyrəndikdə bu dünya görmüş ağbirçəyin olduqca maraqlı və həm də ağrı-acılı söhbətlərini dinləmək üçün onların Nizami küçəsinin şərq qurtaracağında yerləşən binadakı mənzillərinə gedirdim. Söhbətlərindən kədərləndiyimi görən Kamilə xanım daha bir stəkan ətirli çay süzür və mövzunu dəyişmək üçün zarafatla deyirdi: “Çayını iç, fikir eləmə, səni özüm evləndirəcəyəm...”

Çox keçmədən o zamanın nüfuzlu bir qəzetində Ömər Faiqin qızlarının xatirələrindən ibarət yazım dərc olundu. Yazıda Azərbaycan mətbuatında ilk dəfə olaraq Ömər Faiq Nemanzadənin 1958-ci il tarixli bəraət arayışı və bir neçə şəkli verilmişdi. Bəraət baratını “Arxadan atılan daşlardan biri” adlandırmışdım.

Bir müddət də keçdi və həmin yazı əsasında geniş telesüjet hazırlayıb baş redaktorumun köməyi ilə Dövlət televiziyasında efirə verdim. Daha bir müddət keçdi və mən bir-birinin ardınca Kamilə və Adilə Nemanzadələrin həyatdan köçdüklərini eşitdim. Başsağlığına gələndə qohumları məndən onların müsahibəsi olan videokasseti istədilər. Verə bilmədim (Bunun səbəbini sonradan başqa bir qəzetdə Kamilə xanıma yazdığım “Cənnətə üç məktub”da göstərmişəm – Ş.S.)

## Övladlarının danışdıqlarından:

Yadımdadır, o vaxt Ömər Faiqin yalnız iki qızı ilə - Kamilə və Bəxtli Nemanzadələrlə görüşə bilmişdim. Çünki Adilə xanım sanatoriyada müalicə olunurdu. Amma söhbətin televersiyası çəkilərkən Adilə xanım artıq qayıtmışdı və atası haqqında o da söz dedi.

Açığı, onun övladları ilə danışmaq çox ağrılı idi. Əvvəla, ona görə ki, istər-istəməz suallarımla bu ixtiyar insanları olmazın məşəqqətlərə düçar qaldıqları o illərə apararaq incidir, ikincisi də danışdıqlarını eşitdikcə özüm də sanki onlarla birgə əziyyət çəkirdim. Məsələn, Kamilə xanım deyirdi: “İş elə gətirdi ki, 1937-ci ilin 16 iyulunda atam həbs olunanda üçümüz də Gürcüstanda, onun Aqaradakı evində idik. Adilə ilə mən tibb institutunu təzəcə bitirmişdik. Bəxtli isə dördüncü kurs tələbəsi idi. Atamıza baş çəkməyə gəlmişdik. Yamanca sevinirdik. Amma sevincimiz qısa oldu.

Atam tutulandan bir müddət sonra Bakıya köçdük. Bir çoxları kimi biz də küçəyə çıxmağa belə qorxurduq ki, gəlib evimizi axtararlar. Adilə atamın demək olar, bütün sənədlərini yandırdı. Olan-qalanın da əksəriyyətini muzeyə vermişik”.

Ümumittifaq təqaüdçüsü Ömər Faiqin həbs edilib Axalsıxa aparılarkən dediyi sözlərdə həm qəzəb və həm də ləyaqətli insanların nankorluq qarşısında duya biləcəkləri heyrət yaşamaqdadır: “Bu hökuməti sizin üçün quranlardan biri də mən olmuşam, ittifaq təqaüdçüsüyəm. Nə haqla mənim barəmdə pis fikrə düşübsüz?!” Doğrudan da belə idi. bütün həyatı boyu o, insanların ədalət və rifah içində yaşaya biləcəkləri bir cəmiyyətin qurulması uğrunda səmimi mübarizə aparmışdı.

Siyasi görüşlərinə görə Ömər Faiqi yəqin ki, xalqçı-sosialist adlandırmaq olar. Çünki imkanlı ailədə doğulub-böyüsə də bütün ömrü boyu kasıbların tərəfində olmuş, istər həyatda, istərsə də əsərlərində məzlumları qorumaq amalına həmişə sadiq qalmışdı. Yəqin elə buna görədir ki, istər Azərbaycan Demokratik Cümhuriyyətində, istərsə də sovetlərin ilkin dönəmlərində Azərbaycanda və Gürcüstanda tutduğu yüksək vəzifələrdə daim əzilənlərin, haqqı tapdananların tərəfində olmaqdan əsla çəkinməmişdi. Bir sözlə, Ömər Faiq Nemanzadə bütün varlığı

## İkinci məktub

**Kamiləcan!**

*Kağız yazmadığınızdan anlayıram ki, yazmayacaq hala düşmüsünüz. Bu isə çox nahaq. Balaca uşaq deyilsiniz. Bir-iki il sonra bir doxtur, bir böyük iş adamısınız. Sabah, o biri gün heç birimiz də qalmayacağız. Növbət ilə hamımız gedəcəyiz. Bu, bir qanuni-təbiidir. Bu adi şey üçün uzun-uzadıya mütəəssir olmaq uşaqlıqdan, hissiyyata məğlub olmaqdan başqa bir şey deyil. Səni Adilədən daha möhkəm, daha iradəli sanırdım, halbuki belə hallar qarşısında həp zəif imişsiniz. Sən barı Adiləyə, Bəxtliyə baxmayıb kağız yazaydın. Bəni xəstə-xəstə məraqda qoymayaydın. Afərin, Kamil, təəssüratını toplayıb gec də olsa bənə kağız yazdı. Bəni intizardan qurtardı. Atikənin üç gün sonra üzündə parlayan qırmızılığı görsəydin, özün də şaşardın.*

*Bax, dünya adamı, həyat adamı? Göndərdiyim baqajı (bir yeşik sizin üçün yumurta, yağ, pendir, açma və sairə, o biri Baba üçün alma, armud) aldınızmı? Əhməd bəyin baqaj kağızı göndərildimi? Baqajı hansı gün və tamam alıb-almadığınızı tez yaz. Pul xüsusunda sıxıntı çəkməyiniz. Lazımsa (mənim göndərməm gec olur) borc alınız, bən gələn kimi verirüm.*

*Paşa (rus qulluqçu – Ş.S.) bizdəmi? Nasıl yaşıyorsunuz? Evi boş burakmayın. Xırsızlıq olmaya. Hazırlayuruq ki, ayın axırında gələk. Səninlə bərabər Adilə və Baxtlının kağızlarını gözləyirəm.*

***P.S. Bu gün bibiyə kağız göndərmişəm.***

**İmza**
**20.11.1933**


Ömər Faiq ailə üzvləri ilə

ilə xalqın adamı idi və ömrünün axırına qədər də bu cür yaşadı. Kiçik qızı Bəxtli xanım bu barədə belə deyirdi:

- Kasıbları sevən adam idi Ömər Faiq. Kənddə dədə-babadan qalma taxta zavodumuz, dəyirman, bir də bərə var idi. Həmişə çalışırdı ki, kasıblar bunlardan pulsuz istifadə eləsinlər. Sonralar qardaşları ilə məsləhətləşib hamısını hökumətə verdi. Təmtəraqdan əsla xoşu gəlməzdi, bizi də bu ruhda böyütməyə çalışırdı. Təqaüdə çıxandan sonra borc-xərclə özünə ev tikdirmişdi Aqarada. Burada cəmi altı ilə yaşaya bildi...

Atamdan sonra institutda təqaüdümü kəsdilər. Birtəhər təhsilimi başa vurdum. Heç yadımdan çıxmaz, 1943-cü ildə Akademiyanın Kimya institutuna kiçik elmi işçi düzəlmişdim. Beş il işlədim orada. Sonra da ərizə yazıb çıxmağa məcbur oldum: elmi rəhbərimi akademiyanın Xüsusi şöbəsinə çağırıb deyiblərmiş ki, atası tutulmuş adamı işdə saxlamağa ixtiyarımız yoxdur.

Kamilə xanım: "Bizi həmişə danlayırdı. Bir şey istəyəndə deyirdi ki, sizdən pis yaşayanlar var. Biz cavab verərdik ki, bizdən yaxşı yaşayanlar da var. O isə razılaşmırdı, söyləyirdi ki, mən onları adam saymıram. Qızıldan zəhləsi gedirdi, odur ki, biz bacılardan heç birimizin qulağı deşilməmişdi".

Ömər Faiq oğlundan çox nigaran idi. Amma hərbi həkim olan oğlunun da tutulduğunu, on il iş alıb Sibirə göndərildiyini bilmədən güllələndi. "İstintaq" gedişində ona da, oğluna da olmazın işgəncələr veriblərmiş. Onların hər ikisindən "Türkiyə şpionu" olduqlarını boyunlarına almaq tələb olunurmuş. Maraqlıdır ki, Ömər Faiqin "cinayət işində" də erməni "izi" var: Onu "dindirənlərdən" biri törətdiyi cinayətlərə görə əvvəllər kilsələrdə gizlənən, sonralar isə inzibati orqanlara soxulan Odabaşyan familli erməni imiş.

Kamil Nemanzadə həbs müddətini başa vurduqdan sonra da geri qayıtmasına icazə verilməyib. Deyiblər ki, əmr var, heç kəs kənara buraxılmasın. Elə Sibirdə də evlənib. Sonradan ailəsi ilə birlikdə Bakıya köçüb. Danışırmış ki, həbs edən kimi onu kisənin içinə salıb döyməyə başlayıblar. Əlləri ilə başını tutubmuş ki, əzilməsin. Yalandan ona deyirmişlər ki, atan boynuna alıb, sən də Türkiyə şpionusan.

Bakıya qayıtdıqdan sonra Kamil bəy Azneftdə həkim işləyib. Yəqin həbs işgəncələri və Sibir illərinin fəsadlarındanmış ki, əyilib ayaqqabılarını geyinə bilmirmiş. O, 1987-ci ildə dünyasını dəyişib. Zövcəsi və üç övladı o vaxt Montin deyilən ərazidə yaşayırlarmış...

## Salamat qalmış məktublar

Bunları Kamilə xanımda görmüşdüm. Daha doğrusu, o, "Ömər Faiqin yazılarından salamat qalanları varmı? Yəqin ki, onun sənədlərinin hamısını yandırmamısınız..." israrımdan sonra həmin məktubları mənə göstərdi. "Atamın Bakıda oxuyarkən bizə yazdığı məktublardan əlimizdə qalanlardır", - dedi. Çox sevindim, qaytarmaq şərti ilə məktubları dərc edilmək üçün mənə verməsini xahiş elədim. İstəyimi yerə salmadı.

Ərəb əlifbasını bilsəm də Ömər Faiqin xəttini oxumaqda çətinlik çəkdim. Odur ki, məktubları transliterasiya etdirmək üçün AMEA



საქართველოს საბჭოთა სოციალისტური რესპუბლიკის
უზენაესი სასამართლო
ВЕРХОВНЫЙ СУД ГРУЗИНСКОЙ ССР

„10“ апреля 1958 г.

СПРАВКА № 440

Дело по обвинению Омар Файк Нейманзаде, к моменту ареста пенсионер пересмотрено Верховным Судом Грузинской ССР 4 апреля 1958 года.

Постановление тройки при НКВД Грузинской ССР от 10 октября 1937 г. в отношении Омар Файк Нейманзаде отменено, дело о нем производством прекращено и он реабилитирован.

Зам. Председателя Верховного суда Грузинской ССР /С. Кадхая/.

**Ömər Faiqin bəraət arayışı**

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna üz tutdum. Qarşıma institutun əməkdaşı, tanınmış alimimiz Arif Ramazanov çıxdı. Sağ olsun, məktubları oxuyaraq diktə elədi, mən də yazdım.

Kamilə və Adilə Nemanzadələrin vəfatından sonra məktublar məndə qaldı. Bunların məndə olduğunu artıq kimsə bilmirdi. Odur ki, əvvəlcə istədim həmin qiymətli vərəqləri Ədəbiyyat və incəsənət arxivinə təhvil verim. Amma bu, doğru olmazdı. Əvvəla, ona görə ki, Ömər Faiqin müəyyən fəlsəfi fikirləri verilmiş olsa da, hər halda bunlar ailə məktubları idi. Məktub müəllifinin bir övladı isə sağdı. Odur ki, telefonla zəng etdikdən sonra Bəxtli xanımın Axundov bağçasının yaxınlığındakı binada olan mənzilinə getdim və məktubları ona verdim. Onların sonrakı taleyindən xəbərim yoxdur. Lakin düşünürəm ki, şəxsi arxivi demək olar, bütünlüklə itib-batmış naşir, publisist və düşünər Ömər Faiq Nemanzadənin 4 məktubunun və bunlardan birinin kənarında etdiyi qeydlərinin

## Üçüncü məktub

**Kamilcan!**

*Bu gün ayın 24-ü. 20-sindən bəri gah yağış, gah qar yağırdı. Bu gecə yağan qar isə yalnız dağları, meşələri deyil, düzləri də ağartdı. Bu gün səhər tezdən durdum. Lakin elə ayaz, elə savuq ki, dışarı çıxamadım. Mənim mübarək allahımı – gözəl günəşimi gözlədim. Belə ayaz günlərdə günəşin parlaq və hərarətli üzünə tamaşa etmək nə qədər xoş, nə dərəcədə fərəhli imiş. Balkonda durub hər yana həyat saçan allahımın naz və əda ilə çıkışını uzun zaman seyr etdim. O qədər dalmışam ki, üşümüşəm, tez qaçıb şiddətli yanan peçin köməyinə sığındım, isindim. Peçin üstündə ətməkləri isidib pendir və yağla yedim. Bir az sonra itdərin səsinə balkona çıxdım. Gördüm ki, Qumaş, Quda, Qaraquş (kiçik qarapipigin (it – Ş.S.) adıdır) baxçaya gələn briqadaları sarmışlar. Onları dəf edib briqadalara işlərini göstərdim. Mən də gah nəzarət edir, gah üşüdükcə evə qaçırdım. Günorta vaxtı yenə isinməyə evə gəlmişdim ki, sənin 18-də yazdığın "speşnoy" kağızınla bərabər Kamilənin və sənin daha əvvəl yazdığınız açıq məktublarınızı verdilər. Açıb oxudum və ürəyimdə acıqla dedim, bunlar nə zəif və aciz məxluqlarmış. Nə var, nə olmuş? Nə üçün özlərini belə itirmişlər.*

*Məktubunu stolun üstünə buraxıb yenə baxçaya briqadaların yanına getdim. Axşama qədər mən də baxçada briqadalarla bərabər qaldım. Axşam olub yüngül yeməyi yeyəndən sonra sənə bu kağızı yazmağa başladım. Bu saat 8-9 olur. Dışarısı son dərəcə ayaz və savuq. Yazı məni yorduqca arabir başımı qaldırıb pəncərədən ayın nuruna, gedişinə tamaşa edirəm. Savuqa dayana bilsəydim bu gözəl, qüdrətli, qarlı gecədə gəzməyə çıxardım.*

*Gündüz acıqlı bir surətdə stolun üstünə buraxdığım məktubunu bir daha diqqətlə oxudum. Doğrusu daha ziyadə acıqlandım. Niyə siz belə bacarıqsız, təbii bir fəlakətin qarşısında kəndinizi itirirsiniz. Bizim üçün acılı, dərdli, təbiət üçün... gündəlik, bəlkə dəqiqəlik adi hadisədən sayılan ölümün hamımız üçün er-gec (tez-gec – Ş.S.) gələcəyini və bunun üçün həyatı zəhərləmənin lüzumu olmadığını nə üçün anlamırsınız? Bu zamanda 65-70 yaşa dolmuş, yetişmiş ölüm deyilən kimyəvi dəyişikliklərə hazırlaşmış deməkdir. Bu təbii dəyişikliyə qarşı uzun-uzadı marağın mənası varmı?*

*İnan, Kamilcan. Mən ölümdən heç qorxmuram. Çünki bu gün-sabah olmasa, bir qaç ilə, bəlkə daha tez onu gözləyirəm. Mən açığını söyləyirəm. Ölümdən artıq sizdən, sizin zəif sınırlarınızdan qorxuram. Əmin ol ki, bən xəstə olsam heç gizlətmərəm, çünki xəstələnmək ölmək demək deyildir.*

*Bir də bilirsən, mən özümə diqqət ediyorum. Toxunur deyə heç çay da içmirəm, ət az yeyirəm, işləmirəm, lazım olanda işə nəzarət edirəm. Bu son vaxtlarda ciyərim də, ürəyim də yaxşıdır. Özümdə əziyyət verəcək heç bir xəstəlik nişanəsi hiss etmirəm. Ümumi, köhnə xəstəliyimə görə deyə bilərəm ki, bu saat çox-çox yaxşıyam. Abidə də yaxşıdır. Ancaq ona söz qandıramıram. Hey çalışır, hey çalışır. Barı vaxtında yeyib-içsə, yenə özünü şaxlar. Bu da yox. Buna görə o, məndən fənadır, zəifdir. (Taleyin atenməz gərdişinə bax ki, zövcəsinin zəif səhhətindən narahat olan öz sağlamlığına diqqətli Ömər Faiq bundan sonra cəmi 4 il, zövcəsi Abidə xanım isə 28 il yaşadı – Ş.S. )*

*Əlbət, tez gəlməyi biz də istərdik. Lakin, pasdurma, sucuq bizim sözümüzə bakmayur, tez qurumayur. Onları yaş gətirmək də olmaz, xarab olar. 5-10 gün daha səbr ediniz. Dekabrın 1-2-də yola çıxarız. Mən Kamiləyə yazmışdım ki, dərzi Paşanı bizdə saxlasın, görünür qalmır. Bilsəydim sentyabrda oraya gəlib sizə münasib bir qulluqçu qadın tutardım. Nə isə, keçib. Hər hal bir az səbr. Umaram ki, sən özünü ciddi, iradəli, soyuqqanlı tutmaqla bacılarına nümunə və örnək olasan, onların maraqlanmalarına, adi həyatlarını pozmalarına, dərslərini zəiflətmələrinə, həvəsdən düşmələrinə meydan verməyəsən. Maraqlanıb bir gün də olsun dərs buraxmaq (nərədə qaldı ki, buraya gəlmək) tənbəlliyində, sınır zəifliyində bulunmayasan. Görürsən, məni xəstə sanırsan, mən isə bir oturuşda bu qədər yazdım. Yazıq anan isə halsızlığından düşüb yuklayur. Nə sözüm, mənim xatirimi istəyirsinizsə, mənim rahatlığımı arzu edirsinizsə, sən də, bacıların da boş marağı buraxınız, ciddi olunuz. Bir gün də olsa dərsdən geri qalmayasınız. Görüm səni Kamilim.*

***P.S. Münirə xanımın dəftərçələri itməsin. Saxlayın, mümkünsə göndərin.***

**İmza**
**24.11.1933**

gələcəyin tədqiqatçıları üçün qorunub saxlanılması həm onun ruhuna ehtiram olar və həm də elmimizə fayda gətirərdi.

Ömər Faiqin öz mətbu fəaliyyətinə dair işgüzar qeydlərini qızlarına məktublarından birinin boş yerlərinə yazdığı oxucuya qəribə görünə bilər. Amma ailə üzvləri yaxşı bilirlər ki, onun zəruri qeydlərini əlinin altındakı sənədlərə yazmaq kimi bir şakəri varmış. Kamilə xanım danışırdı ki, "Şərq qadını" jurnalını verdik muzeyə. Nüsxənin kənarlarında Ömər Faiq jurnalın haqq-hesabını qeyd eləmişdi. Sonralar jurnalı muzeydən geri qaytaranda gördük ki, qələmlə yazılanları pozublar. (Görünür, belə hesab ediblər ki, bu qeydlər jurnala xələl gətirir. Həmin "pozucuların" muzey işçisi olduğunu düşündükdə bu laqeydliyə və tarix sayğısızlığına heyrətlənməmək olmur – Ş.S.)

## Dördüncü məktub

**Kamiləcan!**

*Açıq məktubunu bu gün Kamilin "spişnoy" kağızı ilə bərabər aldım. Siz bəndən kağız yazmadığıma maraq edirsiniz. Halbuki kağız yazmayan, bizi maraqda buraxan sizsiniz. Bən hər həftə kağız yazıyorum. Amma səndən də ayda bir dəfə yarım kağız aldım. Hələ Adilədən heç. Bən də acıqla ona yazmıyorum. Nə var, niyə özünüzü bu dərəcə itiribsiniz. Doğrusu, əminin vəfatı kədərli idi. Əlbəttə, hamımız incidik, amma, daha vücudu xəstə edəcək, həyatı zəhərləyəcək qədər, hissiyyata qapılıb zəiflik, acizlik, uşaqlıq göstərmənin də lüzumu yok. Altmış beş yaşında vaxt keçirmiş xəstə bir vücud daha 20 il yaşamayacaq idi. Mən özüm də daha çox bir ömür gözləmirəm. Əlbət bizim getmək vaxtımızdır. Bu bir təbii və adi hadisədir. Bundan ötrü uzun maraq etmək, həyatı, təbiəti anlamamaq, okumamış arvatlar, acizlər cərgəsinə düşmək deməkdir. Bu isə sizə yaraşmaz. Adilə nədən ötrü indiyə qədər mənə kağız yazmadı? Əmi belə onun bu qədər maraq etdiyini duysa inciyər, heç vaxt razı olmaz. Hünər özünü itirmək deyil, saxlamaq, ciddi olmaqdır. Yazmışdım ki, Paşanı (dərzini – Ş.S.) bizdə saxlayın. Ondan heç bir şey yazmırsınız. Pul lazımdısa yazaydın. Teleqrafla göndərərdim. Baqajı məxsus adamla göndərdim ki, tez getsin. 4-ündə göndərilən gərək 6-7-sində alınaydı. 13-nə qədər qalmaq nə demək? Haramzada mənə eləmi söz vermişdi? Bir də Əhməd bəyin yeşiyini Barjomdan düz "Ulyanovskiyə" göndərməmişmi ki, Kamil yazır ki, bu gün buradan göndərdik. Bu nə iş? Mən ona həştad manat verdim ki, Əhməd bəyinkini Barjomdan düz göndərsin. Göndərməmişsə həştad manatı nəyə vermiş? Üç ufaq sandığın Bakıya gəlməsinəmi? Hələ bir də razı qalırsınız. Mən gələndə onunla tamam dava edərəm. Mənə beləmi söz vermişdi?*

*Dekabrın əvvəllərində gələrik. Biz də istəyirik tez gələk, lakin mümkün deyil. Undan, laxanadan (kələm – Ş.S.), qartopudən (kartof – Ş.S.) ötrü heç bir şey yazmırsan. Halbuki bunların orada nə qiymətdə olduğunu və almaq mümkün olub-olmadığını bildirmənizi yazmışdım. Sən isə heç bir şey də yazmırsan. Belə olurmu? Yenə yazdıqlarıma vaxtında cavab vermirsən ki, biz də burada ona görə işimizi görək. Oraya laxana, pasdurma buradan gətirmək istəyirik. Sən isə bir xəbər yazmırsan. Nə isə boş maraq və boş sözlərlə məşğul olursunuz. Lakin ciddi, lazımlı işlərə qarşı dodaq yumursuz.*

*Bu gün 25 noyabr hər yan qar, ayaz, günəş, gözəl hava. Ana istəyir xudahisləşməğə şəhərə getsin. Lakin işdən boşanamır. Yarın köçü bağlamağa başlayacağız yavaş-yavaş. Ancaq, dekabrın 1-nə qədər bəkliyəcəginiz ki, pasdurmalar, sucuqlar qurusun. Bir-iki gün ilə bir şey olmaz. Səbr edin, ayın 2-3-də inşallah orada olarıq. Gələn kimi tərs keçinin saçlarından çəkəcəyəm. Zediban (Axalsıxda yer adı – Ş.S,) pursuxu zəifləməmiş ki? Bu kağızıma daha cavab yazmayasan ki, çatmaz. Kağızlar, ancaq 6-7 günə gedir.*

*Odundan bir şey yazmırsan. Nəzirəyə söylə, bəlkə Yunis bəy vasitəsi ilə aldıra bilə. Yoxsa bu qış odunsuz bən orada duramam.*

*Hə, bəsdir, 25 səhərdə saat 7-də yazıram. Qurtarıb Azqura göndərəcəyəm. Sonra mən də krışa çıxıb pasdurma sucuqdan kəsib endirəcəyəm ki, peçdə qızardaq. Darılma, yeyəndə sizi də yada salacağız. Biz yeyəndə, inşallah sizin də orada qarnınız doyar. Daha artıq yemək nə edəcəksiz. Bax, mən də sənin xasiyyətinə girdim, boş-boşuna kağız doldurdum. Mən nə isə işim yox. Sovuq dışarı çıxmıram. Qoy səninlə boş da olsa söhbət edirəm.*

*Dərslərinizin bir dəfə belə olsa buraxılmasına razı deyiləm. Hələlik sağ olun.*

**İmza**
**25.11.1933**

## Bəzi qeydləri

*«Şərqi-rus» yazıçıları*

*Üzeyir bəy Hacıbəyov (tərcümə)*
*Əsəd Babayev (tərcümə)*
*Mirzə Cəlil*
*Yusif Əfəndiyev (tərc.)*
*Səmədağa Qayıbov (tərc.)*
*Rəşad İsmayılov (tərc.)*
*Müxbirlər: Ağdaş – Muxtarov, Sədrəddin Sufiyev, Nuxadan Həsən Tahirov, Gəncədən ....*

*«Şərqi-rus»*

*Hüseyn dayı – 50*
*Məşədiqulu Rəsulov – 30*
*Mirzəbaba Axundov – 50*
*Əlabbas – 50*
*İsmayıl Məhərrəmov – 40*
*Ələkbər Əlizadə - 30*
*Müslüm İbrahimov – 40*
*Ələkbər Məmmədov – 30*
*Paşa Məmmədov – 30*
*Əbülqasim – 40*
*Şəms (şair) – 30*

*«Qeyrət»*

*Həqqi – 30*
*Cahangir – 30*
*Əbülqasim – 40*
*Hüseyn dayı Axundov – 50*
*Ələkbər Məmmədov – 25*
*Hüseyn – 12*
*Feyzulla Feyzullayev – 12*
*Rəcəb Qarslı oğlu – 12*
*Aydın – 10*
*Rüstəm Quliyev – 12*
*Abdulla (Qazıbəy Məmmədov) –*

*1918-dəki mətbəəni keçirdir. Öz səfərlərin qoltuğunda Bakıda vaqonlarda satırmış. Yolunu görə.*

*1924-cü il. Gəncədə olmuş. Olması mümkün mətbəədə bir çap maşını. Baş daşları*

**Salam, Kamilə xala**

*Necəsən? Yəqin yaxşı olarsan. Amma, yox, güman ki, yenə də baba haqqında düşünürsən. Onunçün az iş gördüyünə yanırsan. Yanma: Sənin eləmək istədiklərin nə Ömər Faiqə, nə də elə Sənə yox, bizə gərəkdir. Kimə pislik eləyirik ki? Bilirəm, qəmlənəcəksən, amma, deməyə bilmirəm: nəinki heykəlini, heç büstünü də qoymayıblar. Ömər Faiq adına təzə küçə də yoxdur, elə o Bayıldakı dıqqılı küçədi, vəssalam. Bu günlərdə Bəxtli xala radioda danışırdı, bu məsələyə də toxundu (Çoxdandı onu yoluxmamışam, gərək bu yaxınlarda gedəm). Hüzrünüzə gələndə məndən Adilə xala ilə apardığım videosöhbət yazılmış kasseti istədilər. Dedim ki, pozulub. Yalan dedim. Ömər Faiq Nemanzadənin qızlarının birinci və sonuncu videosöhbəti yazılmış, Şuşanın qədim-qayım evləri, küçələrinin qənbərləri çəkilmiş videokassetin oğurlandığını necə etiraf edəydim (Yəqin üstünə hansı bir qərbli müğənnininsə hay-küylü konsertini yazıblar). Şuşa da yoxdur, Siz də yoxsunuz, kasset də. Yalvar-yaxarla yazacağınız haqqında Sizdən söz aldığım xatirələr də yarımçıq qaldı...*

*Məktubumu qəmli notlarla bitirmək istəmirəm. Şamil müəllimin (prof. Şamil Qurbanov – Ş.S.) atanız haqqındakı monoqrafiyası nəhayət, çap olundu. Birini də mən almışam. Sanballı əsərdir. Sağ olun. Adilə xalaya məndən salam deyin.*

**Şövkət**

*"Cənnətə üç məktub"dan*



Ömər Faiqin nəticəsi rəssam Ülvi xanım

***Ülvi Pepinova:*** *"Çox istərdim ki, 2022-ci ildə Azərbaycanda Ömər Faiqin anadan olmasının 150 illik yubileyi qeyd edilsin, daha onun adı kölgədə qalmasın, yalnız dar çərçivədə, mütəxəssislər arasında xatırlanmasın, onun şəxsiyyətinin böyüklüyü, bu gün də aktuallığını itirməmiş irsi və ideyaları düzgün dərk edilsin. Ömər Faiqin əsas postulatını dərindən başa düşsünlər: "İnkişaf yolu Rusiyanın təhkimçilik üzərində qurulmuş müstəmləkə ideologiyasından deyil (bunun nəticələri bu gün də aşkardır), liberal dünyagörüşünü formalaşdıran ümumi maarif, savadlanma üzərindən keçir".*

## Son söz yerinə

Kamilə Nemanzadə mənə bir əhvalat danışmış, sonra da "bunu yazma", demişdi. O vaxt yazmadım, amma indi qeyd edəcəyəm: atası tutulandan bir neçə il sonra zamanında çox yüksək vəzifədə işləmiş, dürlü-dürlü mükafatlar almış, qalın-qalın romanların müəllifi və "Sosialist əməyi qəhrəmanı" olan bir zata pənah aparıb, dərdini danışıb: "Axı siz bilirsiniz, mənim atam satqın olmayıb, həmişə xalqına xidmət edib. Niyə onun təmiz adının özünə qaytarılması üçün heç nə etmirsiniz?" İndi dünyasını çoxdan dəyişmiş həmin zat da qayıdıb ki, "sənin atan Türkiyədə oxuduğu üçün biz bu işə qarışa bilmərik!" Dərdinə dərd əlavə olunmuş Kamilə xala qəmli-qəmli aşağı düşüb. Bir erməni qapıçı arvad varmış o qurumda. Ondan niyə ağladığını soruşub. Kamilə xanımın göz yaşlarının səbəbini öyrəndikdə isə qayıdıb: "Sən ona niyə demədin ki, Nazim Hikmət türkdür, bəs onu nə yaxşı əzizləyirsiniz?" Kamilə xanım cavab verməyib, yoluna davam edib...

1990-cı illərin əvvəllərində övladlarından öyrənmişdim ki, Ömər Faiqin səkkiz nəvəsi var. Bunlardan birinin adının Ömər, başqa birisinin isə Faiq adlandırıldığını da söyləmişdilər mənə. Nəvələrdən dördü həmin vaxt müxtəlif elm sahələri üzrə namizədlik işi müdafiə etmişdilər. Bu, əsl maarif fədaisi olan Ömər Faiqin xalqa ən böyük hədiyyəsi, onun məktublarından da aydın görünən təhsil məsələsinə çox ciddi münasibət ənənəsinin davam etməsinin nəticəsi idi.

İndi yəqin ki, o nəvələrin də öz nəvələri var. Əksəriyyəti Bakıda yaşayan bu insanlar bir qədər fəallıq göstərsələr, ulu babalarının haqqı çatan nə varsa, hamısına nail olarlar. Lakin bu amil bizim heç birimizi Ömər Faiqə və onun taleyini yaşayan digər korifeylərimizə olan vəfa borcundan əsla azad etmir... ❖

**Şövkət Səlimov**
jurnalist

**Ədəbiyyat:**

1. Şövkət Səlimov. "O günü unuda bilmirik (Övladları Ömər Faiq haqqında)", "7 gün" həftəlik informasiya qəzeti, 3 avqust 1991
2. Şamil Qurbanov. Ömər Faiq Nemanzadə. Bakı, "Gənclik", 1992
3. Şövkət Səlimov. "Cənnətə üç məktub", "Yeni Səda" qəzeti, 5 avqust 1995
4. http://milliarxiv.gov.az/en/gorkemli-ictimai-siyasi-xadim-edib--publisist-maarifperver-ziyali-omer-faiq-nemanzadenin-metbu-fealiyyeti-haqqinda-
5. https://az.wikipedia.org/wiki/%C3%96m%C9%99r_Faiq_Nemanzad%C9%99
6. https://kulis.az/news/33493
7. https://oxu.az/culture/423877